# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ CAMIŞ CİNSİNİN GENETİK EHTİYATLARININ QORUNMASI VƏ İSTİFADƏ EDİLMƏSİ

**Yusif Əbdüləzimov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutu, yusif_ebdulezimov@mail.ru*

Camışçılıq iqtisadi cəhətdən gəlirli sahə olmaqla xalqımız bu qiymətli heyvanın südündən, qatığından, qaymağından və ətindən keyfiyyətli ərzaq məhsulu kimi istifadə edir. Camış öz konstitusional xüsusiyyətlərinə görə müxtəlif mühit şəraitinə və çətinliklərə uyğunlaşan davamlı heyvandır. Camış çay hövzələrində bitən otları, qanqal, qamış və s. yemləri qaramala nisbətən daha yaxşı istifadə edir. Bu səbəblərdən də camışçılıq respublikada heyvandarlığın qızıl genefondunu təşkil edir.

Camışçılıq, əsasən, ətlik-südlük istimaqətli iribuynuzlu heyvandarlığın bir növüdür. Xüsusi qulluğa ehtiyacları yoxdur. Camışdan alınan süd məhsulları keyfiyyətlilik baxımından inək südünü üstələyir. Gönü isə olduqca qiymətli dəri sayılır. Ölkədə istehsal olunan ətin 25%-i, südün 15%-i, gönün 40%-i onun payına düşür. Buradan görünür ki, heyvandarlıq məhsulları istehsalında camışçılığın da böyük əhəmiyyəti vardır.

Hazırda işğaldan azad edilmiş ərazilərimizdə də Camışçılığın ihkişaf etdirilməsi üçün çox geniş potensial imkanlar var.

"Azərbaycan camışı" cinsi ölkəmizin "qara mirvari"si adlandırılmaqla Cənubi Qafqazda olan camışların 70%-ni təşkil edir. Əsasən qara rəngə malik olur ki, bu da günəş şüalarının onlara ciddi təsir göstərməsinə, bədənini qızdırmasına imkan verir. İsti günlərdə nohurlarda, bataqlıqlarda, durğun sularda, gölməçələrdə və yaxud çay yataqlarında uzanmağı sevirlər. Yemə az tələbkar olması camışların yetişdirilməsinə imkan verir. Eyni zamanda camışlar bir çox xəstəliklərə, o cümlədən vərəmə görə dözümlüdür. Brusellyoz xəstəliyini asanlıqla keçirir, bala salmır, dəri, qan-parazitar xəstəliklərinə yoluxmurlar. Camışlar şaxtaya dözümsüzdür, $-1^0$ C şaxtada artıq əziyyət çəkirlər. Səbəb isə camış orqanizmində piyin az olması ilə izah edilir. "Azərbaycan camışı" cinsindən olan ana camışlar gün ərzində 5-6 litr süd verir və südünün orta yağlılığı 7-8% olur. Cənubi Qafqaz bölgəsində camış südünün yağlığı 8-10% arasında dəyişir. Bu cins camışları təsərrüfatda 16-18 yaşınadək saxlamaq olur. Dişilərin damazlıq fermalarında maksimal canlı kütlələri 400-500 kq, erkəklərin isə 600-700 kq-a çatır. Bəzi fərdlərin canlı kütlələri 800-900 kq-a çatır. Ana camışlarda boğazlıq dövrü 305 gün davam edir. Balalar yeni doğularkən 30-35 kq canlı kütlədə olurlar.

Ölkəmizdə camışçılıqla dövlət müəssisəsi, kəndli-fermer təsərrüfatları məşğuldur. Camışların süd məhsuldarlığı 1400-1600 kq, yağlılıq 7-8%, potensial imkanı 2000-2500 kq-dır. Buna nail olmaq üçün yem bazası yaratmaqla və seleksiya-seçmə işlərini gücləndirməklə yanaşı, "Mürrah camışı" cinsli törədicilərin toxumlarından istifadə etmək vacibdir. "Mürrah camışı" cinsli törədicilərin toxumlarından süni mayalanma üsulu tətbiq edilməklə "Azərbaycan camışı" ilə mayalandırma aparılmalı, sonra isə alınmış mələzlər öz-özlüyündə yetişdirilməlidir. Alınmış mələzlər üzərində seleksiya-damazlıq işlərinin yaxşılaşdırılması nəticəsində onların süd məhsuldarlığını 1800-2000 kq-a və daha çox, süddə yağlığı 9-10%-ə, canlı kütləni dişilərdə 550-600 kq-a, erkəklərdə isə 900-1000 kq-a çatdırmaq mümkündür.

Uzun illərdən bəri alim və mütəxəssislərin apardıqları damazlıq seleksiya işləri, yemləmə-bəsləmə şəraitinin yaxşılaşdırılması nəticəsində "Azərbaycan camışı" cinsinin həm məhsullardılığı, həm də eksteryer göstəriciləri xeyli yaxşılaşmışdır. Yerlərdə aparılan araşdırmalardan müəyyən edilmişdir ki, təsərrüfatlarda camış kəlləri çatışmır. Xüsusilə ev təsərrüfatlarında camışların sayı az olduğu üçün kəl saxlamaq maliyyə cəhətdən sərfəli deyildir. Elə buna görə də kəllərin çatışmama-

sı ucabtından camışlar illərlə qısır qalırlar. Hesablamalar göstərir ki, bir baş kələ 25-30 baş əvəzinə, 60-70 baş camış düşür ki, bu da qısırlığı yaradan başlıca səbəblərdən biridir.

Ona görə də camışlarda süni mayalandırmadan geniş istifadə etmək vacibdir. Bu zaman həm qısırlığın qarşısı alınacaq, həm də camışların baş sayı, nəticədə isə ölkəmizdə camış əti və südünün istehsalı da artacaqdır. Hazırda aparadığımız elmi-tadqiqat işi nəticəsində "Azərbaycan camışı" cinsinin ana camışlarının "Murrah camışı" cinsinin kalının dondurulmuş toxumundan istifadə etməklə süni mayalandırılması nəticəsində mələz alınması işi müvəffəqiyyətlə davam etdirilir.

"Murrah camışı" cinsi, yaxud Dehli camış cinsi Hindistan mənşəli olmaqla Böyük Hind ovalığı boyunca yayılmış məşhur südlük cinslərdəndir. Bu camış cinsi südlə yanaşı, ət istehsalı üçün də istifadə olunur. Orta ağırlıqda, gövdəsi dördbucaq şəklində, buynuzları və ətrafları qısa, incə və çox buruqdur, dişi camışlar nisbətən tez yetişir, çox süd və bala verirlər. Laktasiya dövrünün 300-cü günlüyündə süd məhsuldarlığı 1900-2000 litr olur. 6 aylığında balaqların çəkisi 160-170 kq olur və 18-20 aylığında onlarda damazlıq məqsədilə seçmə aparılır. Gündəlik süd sağımı 8-10 litr olmaqla camışlar ildə 2500-3000 litrə qədər süd verirlər.